**Gülnisə Əlisəfa qızı MUSTAFAYEVA** i.ü.f.d.dos.
magistr **Anar Azər oğlu MIKAYILOV**
Qərbi Kaspi Universiteti
E-mail anarmikayilov19@gmail.com

# İNSAN KAPİTALI İNNOVATİV İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

**Xülasə**

İqtisadi inkişafın dayanıqlığı və rəqabətqabiliyyətli sistemlərin qurulması üçün innovasiya potensialının effektiv idarə olunması vacibdir. Bu məqalədə insan kapitalının innovativ iqtisadiyyatın inkişafındakı rolu, onun Azərbaycan Respublikasında mövcud durumu və beynəlxalq reytinqlərdəki mövqeyi araşdırılmışdır. İnsan kapitalının gücləndirilməsi üçün dövlət siyasətinin istiqamətləri və özəl sektorun bu prosesdəki iştirakı araşdırılmışdır. Təhlillər göstərir ki, təhsil, tədqiqat və inkişaf sahələrində həyata keçirilən strateji tədbirlər Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə töhfə verəcəkdir.

**Açar sözlər**: insan kapitalı, innovasiya, innovativ inkişaf, innovasiya sistemi, innovasiya yönümlü iqtisadiyyat.

**UOT:** 338.
**JEL:** L90;
**DOI:** https://doi.org/ 10.54414/HQGQ7493

**Giriş**

İnsan kapitalı müasir iqtisadiyyatın əsası sayılır və biliklərə əsaslanan texnologiya ilə inkişaf edən iqtisadi modellərdə strateji rol oynayır. Azərbaycanda isə iqtisadi siyasət rəqabətədavamlı insan resurslarının inkişaf etdirilməsinə və onların innovasiya proseslərinə aktiv şəkildə qoşulmasına yönəlib. Bu məqalədə insan kapitalının iqtisadiyyatın innovasiya sektorundakı rolu, onun əsas aspektləri və qarşıya çıxan problemlər təhlil edilmişdir. Azərbaycan Respublikasının Qlobal İnnovasiya İndeksindəki mövqeyi və bu sahədə əldə edilən nəticələr üzərində dayanılmışdır. Məqalə həmçinin insan kapitalının inkişafı və innovativ iqtisadiyyatın gücləndirilməsi üçün tövsiyələri əhatə edir. İnnovasiya sistemləri müasir iqtisadi inkişafın mühüm elementi hesab olunur. Bu sistemlərdə insan kapitalının rolu əvəzolunmazdır, çünki biliklərin yaradılması, texnologiyaların tətbiqi və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün insan kapitalı əsas resurs kimi çıxış edir. Peter Drucker bu haqda qeyd edir ki, "İnnovasiyanın əsas mənbəyi biliklərdir və insan kapitalı bu biliklərin daşıyıcısıdır". [6]

Bu fikir innovasiya proseslərinin təməlində insan faktorunun necə mühüm əhəmiyyət daşıdığını göstərir.

İnsan kapitalı, tədqiqat və inkişaf proseslərinin həyata keçirilməsində strateji rol oynayır. Adam Smit öz məşhur "Millətlərin Sərvəti" əsərində qeyd edir ki, "Əmək məhsuldarlığının artırılması, biliklərin ixtisaslaşma yolu ilə inkişaf etdirilməsi və onların tətbiqi iqtisadi inkişafın əsasını təşkil edir. Bütün böyük nailiyyətlər və texnoloji yeniliklər, fərdi bacarıqların koordinasiyası və əməkdaşlıq çərçivəsində mümkündür". [1] Bu fikir göstərir ki, insan kapitalı yalnız texnologiyaların tətbiqi ilə məhdudlaşmır, həm də yeni biznes modellərinin inkişafı üçün vacib platforma yaradır.

Bununla yanaşı, Gary Becker qeyd edir ki, " İnsan kapitalına yatırılan sərmayələr təkcə qısamüddətli deyil, həm də uzunmüddətli perspektivdə əmək məhsuldarlığını artıraraq iqtisadi rifahı gücləndirir ". [5]

Texnologiya və biliklərin beynəlxalq səviyyədə transferi də insan kapitalının mühüm töhfələrindən biridir. Təhsilə qoyulan sərmayələr isə insan kapitalının innovasiya yönümlü sahələrdəki effektivliyini daha da artırır. Azərbaycan kontekstində innovasiya sistemlərinin inkişafı xüsusi əhəmiyyət kəsb edir.

2016-cı ildə təsdiqlənmiş Strateji Yol Xəritəsində bu sahə prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu sənəddə insan kapitalının elmi tədqiqatlar, startaplar və texnologiya sahələrinə

cəlb olunması istiqamətində konkret tədbirlər nəzərdə tutulmuşdur. Məsələn, ölkədə universitetlərdə tətbiq olunan "təhsil-tədqiqat-innovasiya" modeli bilik əsaslı iqtisadiyyatın formalaşdırılmasında mühüm rol oynayır. Eyni zamanda, ali təhsil müəssisələrindəbeynəlxalq əməkdaşlıq proqramları çərçivəsində elmi tədqiqatların maliyyələşdirilməsi təmin edilmişdir.

Azərbaycanda innovasiya sistemlərinin inkişafı istiqamətində addımlar atılsa da, problemlər qalmaqdadır. Elmi tədqiqatlara ayrılan vəsaitin azlığı, özəl sektorun zəif iştirakı və təhsil sisteminin innovasiya yönümlü ixtisaslara uyğunlaşmaması əsas çətinliklərdir. Paul Romer öz nəzəriyyəsində vurğulamışdır ki, "İnnovasiya yönümlü iqtisadiyyatların inkişafı biliklərin istifadəsi və yayılması üçün əlverişli mühitin yaradılmasından asılıdır". [13] Problemlərin həlli üçün dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, tədqiqatlara daha çox vəsait ayrılması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması vacibdir. İnsan kapitalına qoyulan sərmayələr təkcə iqtisadi dividendlər deyil, həm də innovasiya yönümlü inkişaf üçün baza yaradır.

**Azərbaycan insan kapitalının inkişafı və mövcud problemləri.**

Azərbaycan Respublikasında insan kapitalının inkişafı milli iqtisadi siyasətin prioritet istiqamətlərindən biri olaraq qəbul edilmişdir. Dövlət tərəfindən həyata keçirilən strateji islahatlar bilik iqtisadiyyatının formalaşdırılması və rəqabətqabiliyyətli insan resurslarının hazırlanmasını hədəfləyir. 2021-ci ildə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi İnkişafa dair Milli Prioritetlər" sənədində insan kapitalının inkişafı, təhsilin keyfiyyətinin artırılması və innovativ iqtisadiyyatın qurulması əsas məqsədlərdən biri kimi qeyd edilmişdir. Bu sənəddə vurğulanır ki, "müasir təhsil sistemi yalnız biliklərin ötürülməsi deyil, həm də yaradıcı və analitik düşüncə bacarıqlarının inkişaf etdirilməsi üçün əsas platformadır". [3].

Azərbaycanın iqtisadi siyasəti insan kapitalına qoyulan sərmayələrin artırılmasını nəzərdə tutur. Məsələn, təhsil sahəsində həyata keçirilən islahatlar və peşə təhsilinin inkişafına yönəlmiş layihələr bu prosesin mühüm elementlərindəndir.

Təhsilin iqtisadi təsirinə dair Gary Becker yazır ki, "İnsan kapitalına qoyulan sərmayələr uzunmüddətli dövrdə əmək məhsuldarlığını artırmaqla iqtisadi rifaha təkan verir" .[5]

Dövlət proqramları ali təhsil müəssisələrində tədqiqatların stimullaşdırılmasını və beynəlxalq əməkdaşlıq proqramlarının həyata keçirilməsini təmin etsə də, bir sıra problemlər mövcuddur. Azərbaycanın Qlobal İnnovasiya İndeksindəki mövqeyi göstərir ki, irəliləyişlər olsa da, innovasiya sahəsində məhdudiyyətlər qalmaqdadır. Əsas problemlərə elmi tədqiqatlara ayrılan məhdud vəsait, özəl sektorun zəif iştirakı və idarəetmə mexanizmlərinin qeyri-effektivliyi daxildir. Təhsil sistemində innovasiya yönümlü ixtisasların azlığı və müasir texnologiyaların tətbiqində gerilik insan kapitalının inkişafına mənfi təsir edir.

Paul Romer qeyd edir ki, "Texnoloji inkişaf yalnız biliklərin yayılması və tətbiqi üçün əlverişli mühit yaradıldığı zaman mümkün olur".[13] Bu yanaşma təhsil və texnologiya arasındakı uçurumun aradan qaldırılması üçün strateji tədbirlərin vacibliyini göstərir. Eyni zamanda, ölkənin rəqəmsal iqtisadiyyat potensialı tam istifadə edilmir.

Rəqəmsal texnologiyaların tətbiqi və ixtisaslı kadrların hazırlanması iqtisadi rəqabət qabiliyyətini artırmaq üçün vacibdir. Universitetlərin və tədqiqat mərkəzlərinin fəal iştirakı, elmi tədqiqatlara daha çox vəsait ayrılması, özəl sektorun innovasiyalara cəlb edilməsi və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması prioritetlər arasındadır. Joseph Schumpeterin sözlərinə görə,"İnnovasiya yalnız mövcud sistemlərin və resursların effektiv şəkildə yenidən təşkil olunması ilə mümkün ola bilər".[8] Bu yanaşma insan kapitalının səmərəli istifadəsi və innovasiya sistemlərinin inkişafı üçün mühüm istiqamətlər təqdim edir. İnsan kapitalına yönəlmiş islahatlar Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini artıracaqdır.

**İnsan kapitalının inkişafı üçün strateji yanaşmalar.**

İnsan kapitalının inkişafı hər bir ölkənin iqtisadi siyasətində prioritet istiqamətlərdən biridir. Bu istiqamətdə müvəffəqiyyət əldə etmək üçün həm dövlət, həm də özəl sektor səviyyəsində koordinasiya olunmuş tədbirlər həyata keçirilməlidir. Joseph Stiglitz qeyd edir ki, "İnsan kapitalının inkişafı sosial bərabərlik və iqtisadi inkişaf arasında əsas körpüdür". [9] İnsan kapitalının inkişafı yalnız təhsil və təlim sahəsində deyil, həmçinin sağlamlıq, texnoloji biliklərə əlçatanlıq və yaradıcı mühitin formalaşdırılmasında strateji yanaşmaları tələb edir.

Təhsil insan kapitalının inkişafında mərkəzi rola malikdir. Müasir iqtisadiyyatda təhsil yalnız biliklərin ötürülməsi deyil, həm də yaradıcı və analitik düşüncə bacarıqlarının formalaşdırılması üçün platforma rolunu oynayır. Paul Krugman yazır ki, "Təhsil sisteminin keyfiyyəti əmək məhsuldarlığını artırmaq və innovativ iqtisadiyyat qurmaq üçün əsas amildir". [12]

Azərbaycan hökuməti tərəfindən son illərdə həyata keçirilən dövlət proqramları çərçivəsində beynəlxalq ikili diplom proqramlarının tətbiqi, təhsilin keyfiyyətinin artırılması və tələbələr üçün rəqabətli mühitin yaradılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Bununla belə, ali təhsildə innovasiya yönümlü proqramların sayının artırılması və texnoloji təhsilə diqqətin artırılması zəruridir. Özəl sektorun insan kapitalının inkişafında iştirakı olduqca əhəmiyyətlidir. Gary Becker vurğulayır ki, "Özəl sektorun insan kapitalına yatırımları uzunmüddətli dövrdə həm şirkətlərin, həm də ümumi iqtisadiyyatın məhsuldarlığını artırır". [5]

Rəqəmsal texnologiyaların və süni intellektin sürətli inkişafı fonunda özəl müəssisələr işçi qüvvəsinin təkmilləşdirilməsi və innovativ bacarıqların artırılmasına daha çox diqqət yetirməlidirlər. Dünyada aparıcı şirkətlər işçilərin ixtisasartırma proqramlarına ciddi sərmayə yatıraraq daha yüksək məhsuldarlıq və rəqabət üstünlüyü əldə edirlər. Azərbaycanda da özəl sektorun bu sahəyə cəlb olunması və dövlət tərəfindən dəstəklənməsi vacibdir.

Sağlamlıq və sosial təminat insan kapitalının dayanıqlı inkişafı üçün digər mühüm komponentlərdəndir. Yüksək sağlamlıq göstəriciləri əmək məhsuldarlığını artırır və iqtisadiyyatda daha uzunmüddətli iştirak üçün imkan yaradır. Bu baxımdan, dövlət səviyyəsində səhiyyə xidmətlərinə əlçatanlığın artırılması və sosial təminat mexanizmlərinin gücləndirilməsi prioritet olaraq qalmalıdır.

İnnovativ mühitin yaradılması və yaradıcı düşüncənin təşviqi insan kapitalının inkişafı üçün vacibdir. Azərbaycanda texnoparkların və innovasiya mərkəzlərinin genişləndirilməsi bu sahədə müsbət nəticələr verə bilər.

**İnsan kapitalının Azərbaycanın qlobal innovasiya indeksindəki rolu .**

Azərbaycanın Qlobal İnnovasiya İndeksindəki mövqeyi insan kapitalının inkişafı və istifadəsinin ölkənin innovasiya potensialına təsirini göstərən mühüm göstəricidir. Bu indeks elmi tədqiqatlar, təhsil sistemi, texnologiya və biznes mühitinin vəziyyəti kimi müxtəlif faktorları qiymətləndirərək ölkələrin innovasiya imkanlarını müqayisə etməyə imkan verir.

Son illərdə Azərbaycan bu indeksdə irəliləyiş əldə etsə də, ölkənin mövqeyini daha da yaxşılaşdırmaq üçün bir sıra sahələrdə təkmilləşdirmələr tələb olunur. Azərbaycanın Qlobal İnnovasiya İndeksində əldə etdiyi nailiyyətlərdən biri insan kapitalı və tədqiqat sahəsində müəyyən irəliləyişlərdir. Dövlət tərəfindən maliyyələşdirilən tədqiqat və təhsil proqramlarının genişləndirilməsi, xüsusilə də texniki sahələrdə, ölkənin bu sahədəki reytinq göstəricilərini yaxşılaşdırmışdır. Məsələn, Azərbaycan orta təhsildə şagird-müəllim nisbəti göstəricisi üzrə yüksək mövqeyə malikdir ki, bu da təhsilin keyfiyyətini artırmaq üçün əlverişli şərait yaradır.

Bununla belə, bəzi sahələrdə hələ də zəif göstəricilər müşahidə olunur. Elmi-tədqiqat mərkəzlərinin sayı və fəaliyyətinin genişləndirilməsi istiqamətində addımların atılmasına ehtiyac var. Bundan başqa, özəl sektorun elmi tədqiqatlara və innovasiya layihələrinə maliyyə yatırımları məhduddur. Bu, innovativ ideyaların həyata keçirilməsi üçün maneələr yaradır. Beynəlxalq təcrübə göstərir ki, dövlət və özəl sektor arasında sıx əməkdaşlıq innovasiya mühitini gücləndirə və texnologiya transferini təşviq edə bilər.

Azərbaycanın zəif tərəflərindən biri də universitetlərin beynəlxalq reytinqlərdə aşağı mövqeyə malik olmasıdır. Təhsil müəssisələrinin elmi tədqiqatlara daha fəal cəlb olunması, beynəlxalq əməkdaşlıq proqramlarının artırılması və elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması bu istiqamətdə mühüm addımlar ola bilər. Bu, həmçinin Qlobal innovasiya İndeksində ölkənin mövqeyini gücləndirmək üçün imkanlar yarada bilər.

Rəqəmsal iqtisadiyyat sahəsində insan kapitalının hazırlanması, texnologiyaların tətbiqi və bu sahədə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər gücləndirilməlidir. Bu, ölkənin texnoloji inkişafını sürətləndirərək rəqabət qabiliyyətini artıracaq.

Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyini yaxşılaşdırmaq üçün tədqiqat və inkişaf sahələrinə daha çox sərmayə qoyulmalı, innovativ

ekosistemlər yaradılmalı və insan kapitalının bütün potensialı realizə edilməlidir. Qlobal İnnovasiya İndeksi yalnız ölkənin texnoloji və elmi inkişafını deyil, həm də onun ümumi iqtisadi dayanıqlılığını və rəqabət qabiliyyətini əks etdirir. Bu istiqamətdə davamlı tədbirlər ölkənin innovasiya potensialını artıracaq və iqtisadiyyatının modernləşdirilməsinə təkan verəcəkdir.

**İnsan kapitalının inkişafına edilən təkliflər və strategiyalar.**

İnsan kapitalının inkişaf etdirilməsi və bu potensialın innovasiya sistemlərində tam şəkildə reallaşdırılması üçün dövlət və özəl sektor arasında sıx əməkdaşlıq tələb olunur. Müasir iqtisadiyyatların təcrübəsi göstərir ki, insan kapitalına yatırılan sərmayələr uzunmüddətli iqtisadi dividendlərlə nəticələnir. Bu baxımdan, Azərbaycan üçün insan kapitalının inkişafında aşağıdakı strategiyalar təklif olunur.

Birinci növbədə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması prioritet istiqamət olmalıdır. Təhsil proqramları müasir texnoloji dəyişikliklərə uyğun olaraq yenilənməli, innovasiya və texnologiya yönümlü ixtisaslara daha çox diqqət yetirilməlidir. Universitetlərdə elmi-tədqiqat fəaliyyətləri stimullaşdırılmalı və bu fəaliyyətlərin nəticələrinin kommersiyalaşdırılması üçün mexanizmlər yaradılmalıdır. Xarici universitetlərlə ikili diplom proqramlarının genişləndirilməsi, yerli tələbələrin beynəlxalq təcrübədən faydalanmasını təmin edəcək.

Özəl sektorun insan kapitalının inkişafında daha aktiv iştirakını təmin etmək üçün müvafiq iqtisadi stimullar tətbiq edilməlidir. Şirkətlərə elmi-tədqiqat layihələrinə yatırdıqları sərmayələr üçün vergi güzəştlərinin verilməsi, onların innovasiya layihələrində fəal iştirakını təşviq edə bilər. Eyni zamanda, özəl sektorda işçilərin ixtisasartırma proqramlarının maliyyələşdirilməsi əmək məhsuldarlığını artırmağa kömək edəcək.

Dövlət tərəfindən maliyyələşdirilən proqramlar çərçivəsində texnoparkların və innovasiya mərkəzlərinin fəaliyyətlərinin genişləndirilməsi məqsədəuyğun olardı. Bu mərkəzlər həm startapların inkişafı üçün baza rolunu oynaya bilər, həm də texnologiyaların kommersiyalaşdırılmasını təşviq edər. İnnovasiya ekosisteminin genişləndirilməsi insan kapitalının yaradıcı potensialını reallaşdırmaq üçün əlverişli mühit təmin edəcəkdir.

Sağlamlıq və sosial təminat insan kapitalının inkişafında mühüm əhəmiyyətə malikdir. Sağlam işçi qüvvəsi məhsuldarlığı və innovasiya fəaliyyətlərini artırır. Buna görə, səhiyyəyə və sosial təminata yatırımlar dövlətin prioritetləri arasında olmalıdır. Rəqəmsal iqtisadiyyata keçidi sürətləndirmək üçün rəqəmsal bacarıqların artırılması və kadr hazırlığına yönəlmiş proqramlar həyata keçirilməlidir. Bu, ölkənin texnoloji inkişafını dəstəkləyərək beynəlxalq rəqabət qabiliyyətini artıracaqdır.

Nəhayət, insan kapitalının inkişafı üçün regional proqramların genişləndirilməsi zəruridir. Azərbaycanın müxtəlif regionlarında innovasiya yönümlü layihələr həyata keçirilməli, yerli təhsil müəssisələri və işəgötürənlər arasında əməkdaşlıq təşviq edilməlidir. Bu, regionların iqtisadi inkişafına təkan verərək ümumi iqtisadi sistemin dayanıqlılığını artıracaqdır.

İnsan kapitalının inkişafı uzunmüddətli planlaşdırma tələb edən strateji məsələdir. Təklif olunan tədbirlər həyata keçirildiyi təqdirdə, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyəti güclənəcək və ölkə beynəlxalq reytinqlərdə daha yüksək mövqelər tutacaqdır. İnsan kapitalına qoyulan sərmayələr gələcək nəsillər üçün dayanıqlı iqtisadiyyat və yüksək social rifah təmin edəcəkdir.

**NƏTİCƏ**

İnsan kapitalı müasir iqtisadiyyatın əsas resurslarından biri olaraq dayanıqlı inkişafın təmin edilməsində həlledici rol oynayır. Təhsil, sağlamlıq, sosial təminat və texnologiyaların inkişafı kimi sahələrdə insan kapitalına qoyulan sərmayələr ölkələrin iqtisadi rifahını və beynəlxalq rəqabət qabiliyyətini müəyyən edir. Müasir iqtisadi reallıqlar göstərir ki, bilik və innovasiya əsaslı iqtisadiyyatlarda insan kapitalı strateji əhəmiyyətə malikdir.

Azərbaycanın bu sahədəki nailiyyətləri və qarşılaşdığı çağırışlar genişmiqyaslı islahatların zəruriliyini ortaya qoyur. Ölkəmizdə həyata keçirilən təhsil islahatları, elmi tədqiqatlara yönəlmiş proqramlar və beynəlxalq əməkdaşlıq layihələri insan kapitalının inkişafı istiqamətində mühüm addımlardır. Lakin bu sahədə hələ də özəl sektorun kifayət qədər fəal iştirak etməməsi, elmi-tədqiqat fəaliyyətlərinə ayrılan vəsaitin məhdudluğu və rəqəmsal transformasiya sahəsindəki problemlər əsas maneələr kimi qalmaqdadır. İnsan kapitalının

inkişafı və innovasiya sistemlərinin gücləndirilməsi üçün bir sıra prioritet istiqamətlər müəyyən edilmişdir. Təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, rəqəmsal bacarıqların inkişaf etdirilməsi, texnoparkların və innovasiya mərkəzlərinin genişləndirilməsi, eləcə də özəl sektorun bu prosesdə daha aktiv iştirakı bu prioritetlərin əsasını təşkil edir. Eyni zamanda, regional proqramların təşviqi və sosial təminat sistemlərinin gücləndirilməsi də insan kapitalının inkişafına töhfə verə bilər.

Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyini yaxşılaşdırmaq və innovasiya yönümlü iqtisadiyyatın təməlini qurmaq üçün insan kapitalına davamlı sərmayələr yatırılmalı və strateji yanaşmalar tətbiq edilməlidir. İnsan kapitalının inkişafı ölkənin iqtisadi dayanıqlılığını təmin etməklə yanaşı, gələcək nəsillərin rifahını da zəmanət altına alacaqdır. Bu istiqamətdə düzgün həyata keçirilən siyasət Azərbaycanı beynəlxalq səhnədə daha güclü mövqeyə çıxaracaq və dayanıqlı iqtisadiyyatın qurulmasına xidmət edəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Adam Smith, The Wealth of Nations, Millətlərin Sərvəti, s.50.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Təhsil Sistemində Yeniliklər. Bakı: Təhsil Nəşriyyatı. (2022).
3. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi Azərbaycan 2030: Sosial-iqtisadi İnkişafa dair Milli Prioritetlər. (2016). s. 15
4. Azərbaycan Respublikasının Strateji Yol Xəritəsi . Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Yol Xəritəsi. Bakı: Dövlət Nəşriyyatı. (2016).
5. Becker, G. S. Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education. The University of Chicago Press. (1964). s. 78.
6. Drucker, P. F. Innovation and Entrepreneurship: Practice and Principles. Harper Business. (1985). s. 40
7. Florida, R. The Rise of the Creative Class: And How It's Transforming Work,Leisure, Community, and Everyday Life. Basic Books. (2002).
8. Joseph Schumpeter, Capitalism, Socialism and Democracy, s. 84.
9. Joseph Stiglitz, Globalization and Its Discontents. s. 103.
10. Qlobal İnnovasiya İndeksi. World Intellectual Property Organization (WIPO) Report. (2022).
11. OECD Skills for Innovation and Research. OECD Publishing. (2019).
12. Paul Krugman. The Return of Depression Economics, s. 89.
13. Paul Romer, Endogenous Technological Change . s. 24.
14. Schultz, T. W. Investment in Human Capital. Free Press. (1971).

**Гюльниса Алисафа кызы МУСТАФАЕВА д.ф.э.н.дос.**
**Анар Азер оглы МИКАИЛОВ магистр**
Западно Каспийский Университет
**E-mail** anarmikayilov19@gmail.com

## ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ КАК ФАКТОР ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

**Резюме**

Эффективное управление инновационным потенциалом важно для устойчивости экономического развития и создания конкурентоспособных систем. В данной статье анализируется роль человеческого капитала в развитии инновационной экономики, его нынешнее положение в Азербайджанской Республике и его положение в международных рейтингах. Исследованы направления государственной политики по укреплению человеческого капитала и участию частного сектора в этом процессе. Анализы показывают, что стратегические меры,

реализуемые в сфере образования, исследований и разработок, будут способствовать укреплению международных позиций Азербайджана.
**Ключевые слова:** человеческий капитал, инновации, инновационное развитие, инновационная система, инновационно-ориентированная экономика.

**Gulnisa Alisafa MUSTAFAEVA doctor of Phd.**
**Anar Azer MIKAILOV Master**
West Caspian University
**E-mail** anarmikayilov19@gmail.com

## HUMAN CAPİTAL AS A FACTOR İN İNNOVATİVE ECONOMİC DEVELOPMENT

**Summary**

Effective management of innovation potential is important for sustainable economic development and the creation of competitive systems. This article analyzes the role of human capital in the development of an innovative economy, its current position in the Republic of Azerbaijan and its position in international rankings. The directions of government policy to strengthen human capital and the participation of the private sector in this process are explored. Analyzes show that strategic measures implemented in the field of education, research and development will help strengthen Azerbaijan's international position.
**Key words:** human capital, innovation, innovative development, innovation system, innovation-oriented economy.